İPƏK YOLU, No.3, 2024, səh.198-203
https://doi.org/10.30546/SI.2024.2.3.355

# TƏSƏVVÜF PRİNSİPLƏRİ

**Rəna Rzayeva**

AMEA Şərqşünaslıq İnstitutu, Bakı, Azərbaycan
e-mail: rzayeva1958@icloud.com

**Xülasə.** Məqalədə əsas məqsəd təsəvvüfdə mövcud olan müəyyən prinsiplərin araşdırılıb-tədqiq edilməsidir. Məlumdur ki, təsəvvüfün bir təlim kimi genişlənib formalaşmasında mütləq mənada müəyyən xətlər, qanunlar mövcud olmuşdur. Təsəvvüfün əsas qayəsi kimi Allaha qovuşmaq, İlahi eşqi anmaq qəbul olunursa, bu məqsədə çatmaq üçün, şübhəsiz ki, müəyyən prinsiplərə riayət edilməlidir. İlahi eşqi anlayıb ona gedən yolları araşdırmaq vacib şərtlərdəndir. Məqalədə təsəvvüfdə məqam və hal, fəna və bəqa kimi təsəvvüfi prinsiplər təqdim edilir, onların xüsusiyyətləri, əlamətləri araşdırılır. Məlumdur ki, təsəvvüfü anlamaq, başa düşmək üçün mütləq təmizlənmək, ruhi paklığa nail olmaq gərəkdir. Təsəvvüf alimlərinə görə sufilik müsəlmanın mənəvi axtarışlarının nəticəsidir və bu fikir öz əksini məqalədə tapmışdır. Belə ki, sufilik yolu ilə gedən müsəlman maddi aləmdən azad olmağa və mənəvi cəhətdən yüksəlməyə can atır.

**Açar sözlər:** Şərq, təsəvvüf, İlahi eşq, hal, məqam, fəna, bəqa.

## TASAWWOF PRINCIPLES

**Rana Rzayeva**
*ANAS Institute of Oriental Studies, Baku, Azerbaijan*

**Abstract.** The main purpose of the presented article is to investigate and study certain principles existing in Sufism. It is known that in the development and formation of Sufism as a teaching, certain lines and laws existed in the absolute sense. If meeting God and remembering God's love is accepted as the main goal of Sufism, certain principles must be followed to achieve this goal. One of the important conditions is to understand divine love and explore the paths leading to it. In the article, Sufi principles such as maqam and hal, fana and baga in Sufism are presented, their characteristics and signs are investigated. It is known that in order to understand Sufism, it is necessary to be purified and achieve spiritual purity. According to Sufism scholars, Sufism is the result of a Muslim's spiritual quest, and this idea is reflected in the article. Thus, Muslim following the path of Sufism aspires to be free from the material world and to rise spiritually.
**Keywords:** East, Sufism, Divine love, condition, maqam, fana, baga.

## ПРИНЦИПЫ ТАСАВВОФА

**Рена Рзаева**
*Институт Востоковедения НАНА, Баку, Азербайджан*

**Резюме.** Основной целью представленной статьи является исследование и изучение некоторых принципов, существующих в суфизме. Известно, что в развитии и становлении суфизма как учения существовали определенные линии и законы в абсолютном смысле. Если воссоединение с Богом и восприятие Божьей любви признаются главной целью суфизма, то для достижения этой цели необходимо следовать определенным принципам. Одно из важных условий - понять божественную любовь и исследовать пути, ведущие к ней. В статье представлены такие суфийские принципы, как макам и хал, фана и бага в суфизме, исследованы их характеристики и признаки. Известно, что для понимания суфизма необходимо морально очиститься и достичь духовной чистоты. По мнению исследователей суфизма, суфизм является результатом духовных исканий мусульманина, и эта идея отражена в статье. Таким образом, мусульманин, идущий по пути суфизма, стремится освободиться от материального мира и подняться духовно.
**Ключевые слова:** Восток, Суфизм, Божественная любовь, фана, бага, состояние, макам.

## 1. Giriş

Təsəvvüf və ya Sufizm - İslamda geniş yayılmış ezoterik dini və fəlsəfi cərəyandır. Təsəvvüf İslam dinindəki mənəvi həyatın və əxlaqi dəyərlərin adıdır. Bu fəlsəfi - dini təlimdə insan nəfsi ilə mücadilə edərək onu islah və tərbiyə etməsi, öz varlığından və dünyadan keçərək, Allaha qovuşması məqsədi izlənilir. Bəzi sufilərə görə, təsəvvüf sülhü olmayan bir savaş, nəfsə qul olmamaq, şeytana alçalmamaq, nəfsin nəsibini tərk edərək haqqın nəsibini axtarmaq, zahirdən uzaqlaşıb batinə yaxınlaşmaq, əziyyətləri gizlətmək, comərdlik, zəriflik və təmizlik olaraq qiymətləndirilir. Bəşəriyyət tarixi ilə düşünülə bilinəcək mövzulardan biri də özündə ilahi sirr və bilgilərin olduğu mistik düşüncədir. Gizlilik anlamını ehtiva edən latın mənşəli bu kəlmə tədricən fəlsəfi və dini mahiyyət almışdır.

Təsəvvüf tarixinin hələ ilk dövrlərindən - mərifət, eşq, hal və məqam kimi bəzi prinsip və kateqoriyalar artıq ayrı-ayrı sufi mütəfəkkirləri tərəfindən irəli sürülmüşdür. Məlumdur ki, Rabiə əl-Ədəviyyə (792) ilk dəfə ilahi eşqi, Zu'n-Nun Misri (859) - hallar və məqamları, mərifət hallarını, Əbu Səid Xərraz (IX) - fəna və bəqa hallarını təsəvvüf fəlsəfəsinə daxil etmişdir.

Sufiliyin prinsipi olan İlahi eşq nədir? Bu suala təsəvvüfi cavab vermək üçün çox qaynaqdan istifadə edilməlidir. Biz bunlardan bir neçəsinə nəzər salaq.

İslam alimi Molla Məhəmməd Möhsün Feyz Kaşani İlahi eşqlə bağlı buyurur: "Allaha eşq bəsləmək - mənəvi məqamın sonu və mələkut dərəcəsinin hündür qalasıdır (v.1670) [14].

Cəlaləddin Rumi (v.1273) eşqi mənəviyyatın ən yüksək zirvəsi kimi qiymətləndirir. Onun fikrinə görə “Eşq dediyin ya Allahdan gəlməlidir, ya da Allah üçün olmalıdır, ya Allaha qovuşdurmalıdır, yoxsa yerlə bir olmalıdır”. Cəlaləddin Rumiyə görə, Eşq Allahın dinidir: “Eşq şəriəti bütün dinlərdən ayrıdır. Aşiqlərin şəriəti də Allahdır, məzhəbi də” [9, s.135].

Mövlana deyir: Eşq qibləmdir, sevgi səcdəmdir [10, s.269].

İlahi eşqi, Allah eşqini yüksəklərə ucaldan mütəsəvvüflərdən biri də Yunus Əmrə olmuşdur.

Yunus Əmrə ilə Mövlana eyni yolun yolçuları olmuşlar. Ancaq onlardan biri farsca yazmış, digəri isə türkcə. Buna baxmayaraq hər iki mütəsəvvüf insanlığa, insan oğluna eyni gözlə baxmış, İlahi eşqi, Allah sevgisini hər şeydən üstün tutmuşlar [3, s.12].

Təsəvvüf tarixində adı xüsusi ehtiramla çəkilən, İslam düşüncəsinin batini yönünü fəlsəfi baxımdan izah edən ilk Sufi və mütəfəkkir olan İbn Ərəbi İlahi sevgini bu şəkildə izah edir: “Allah bizi həm bizim üçün, həm də özü üçün sevir.... Biz Allahı sevirik...” İbn Ərəbi bu sevgini daha təsəvvüfani bir tərzdə təsnifləndirərək dörd növə bölür:

- Allahı, sadəcə Onun üçün sevirik.
- Allahı sadəcə özümüz üçün sevirik.
- Allahı həm Onun üçün, həm də Özümüz üçün sevirik.
- Allahı sevirik, amma bu sevgi sadaladıqlarımızın heç biri üçün deyildir [7, s.45-54].

Göründüyü kimi bu bir başqa, fərqli yanaşmadır. Əslinə qalsa, həqiqətən də Allah sevgisini ifadə etmək, bu hissin mövcudluğunu izah etmək qeyri-mümkündür.

Təsəvvüf prinsiplərindən biri də hal və məqamdır. Bəs hal, məqam nədir?

Sufilik təliminin əsas məsələlərindən biri də istilahların və xüsusilə iki istilahın tərifidir. Yazıçı və ariflərin diqqətindən məlum olur ki, hal və məqam o dövrün mübahisəli məsələlərindən olmuş, onların məfhum və predmeti düzgün aşkarlanmamış və uzun müddət dəqiq tərifi olmamışdır. Bu istilahların tərifi müxtəlif alim, arif tərəfindən müxtəlif cür verilmişdir. Ümumi olaraq belə qəbul etmək olar ki, məqam qazanılandır, onu insan özü qazanmalıdır, hal isə veriləndir, o cəhdsiz, tələbsiz insan qəlbinə daxil olur və nəfsin sifətlərinin yaranması ilə aradan gedir.

Hücviri təsəvvüfün ilk mötəbər məxəzlərindən olan "Kəşf əl-məhcub"unda hal və məqama belə tərif verir: "Məqam Haqq yolunda, Haqqa əməl etməkdə və həmin məqama riayət etməkdə bəndənin iqamət yeridir ki, Onun kamını dərk etsin və halın mənası odur ki, insanın özündən asılı olmadan Haqqdan onun qəlbinə süzülsün. Hal bəndənin səyindən asılı olmayan Allah-Təalanın fəzli və Onun lütfündən ibarətdir [1, s.74]. Belə anlamaq olar ki, sufi ancaq müəyyən məqama yetişdikdən sonra hər hansı hala malik ola bilər. Sufilərin yaşam tərzini araşdırdıqca bu nəticəyə gəlmək olur və İlahidən verilmiş hal nəfsinə hakim ola bilməyən insanın qəlbindən çıxarılır, götürülür.

Bəs sufiliyin digər prinsipi olan fəna və bəqa nədir?

İnsanın əsil özünüdərki (übubət) "fəna" və "bəqa"ya əsaslanır, axı öz "mən"indən imtina etməyən kəs Allaha səmimi xidmət edə bilməz, belə ki "fəna" heçliyə qovuşmaq, "bəqa" isə qəlbən xidmət etməkdir [11, s.150].

İnsan öz varlığında Haqq nurundan başqa hər şeyi unudursa, yalnız pak əxlaqi-mənəvi dəyərləri qəbul edib nəfsi həyatla və natamam əxlaqi-mənəvi düşüncə ilə əlaqəni kəsirsə, fənaya uğrayır. Yəni ruhunu Allaha qovuşdurur. Buna Təsəvvüfdə fəna-fillah deyilir. Fəna-fillah öz cismani vücudunu və maddi həyatı unudub ruhunu ilahi varlıqda yox etməkdir. İnsan varlığındakı ilahi «mən»in Haqqa qovuşub onda yox olmasıdır.

Bundan sonra isə bəqa (əbədiyyət) mərhələsi gəlir ki, buna bəqa-billah deyilir. Bəqa-billah fənaya uğramış ruhun ilahi varlıqda əbədiləşməsi, onunla daim var olmasıdır. Bəqa-billahla «qövsi-uruc» - «yüksəliş qövsü başa çatır və təsəvvüf və irfan» düşüncəsindəki dövri-hərəkət tamamlanır [5, s.31-32].

Seyid Yəhya Bakuvi fənanı bu cür ifadə edir:

Ey talib, bu mənzilə çatdıqda
Öz nəfsini fənaya verməlisən.
Çox riyazətlər çəkməli,
Tam bir cəhd ilə mənzilləri aşmalısan.
Zira qızılını yüz dəfə ataş kürəsinə qoydunsa,
Sitəmkar nəfsin əlindən xilas olarsan.
Riyazətlərin zəhərini canü könüldən çox içməlisən,
Candan nəfsini fənaya verməyə çalışmalısan

Ta ki, Haqqın zövqündən doyunca dada biləsən.
Yol ərləri ərliyə doğru belə gedirlər.
Mənzilin içindəki ilkin fəna (fənayi-əvvəl) budur,
Digər fənalar isə pusqu içərisində gizlidir.

Seyid Yəhya bəqanı isə belə ifadə edir:

Elə ki bu mənzilə yolun düşdü,
Buradan sənə bəqa üz verəcək.
Bu mənzildə hər yerdə ancaq bəqa olacaqdır,
Yalnız Yaradanın camalını seyr edəcəksən.
Küllidən başqa heç bir şey görünməz,
Nəfsin yox olar, heç içində heç.
Bu yolda Bəqayi-əvvəl budur,
Şahın dərgahına gedən yol buradan keçər.
Yolda çox fənalar və bəqalar vardır,
Burada sənə daim bəlalar təşrif gətirər.
Sən əgər bu təşriflərə layiq olsan,
Hər iki aləmdən sıyrılaraq ərənlik kuyinə dönərsən [2, s.37-38].

Kuy «məhəl» deməkdir. Haqqın dərgahına, məskəninə bağlılıq anlamındadır. Aşiqin, arifin meyli daim yarın (Haqqın) səri-kuyindədir [6, s.53].

Sufilərə görə ancaq dünyadan əl üzüb, mənəvi kirdən təmizlənib pak olduqdan sonra, Allah eşqini anlayıb, müəyyən məqama yetişib, özünüdərki qavrayıb ekstaza girərək Allahla qovuşmaq mümkün ola bilər. Sufilərə görə insanı doğru yola ancaq İlahi eşq və sadalanan xüsusiyyətlər yönləndirə bilər. İslamda ezoterik sayılan, tərki-dünyalığı və ali ruhaniliyi təbliğ edən sufizm (təsəvvüf) hələ də qırx qapı arxasında möhürlənmiş sirr olaraq qalır [4, s.4].

Təsəvvüf elminin anlamaq üçün dürüst bir xətlə müəyyən bir səviyyəyə çatmaq lazımdır. Ancaq müəyyən səviyyəyə çatdıqdan sonra sufiliyi anlamaq, onu dərk etmək mümkün ola bilər [8, s.33].

Sufilər Allaha birbaşa qovuşmağın mümkünlüyünə inanan və ömrü boyu Haqqa can atan şəxslərdir. Onlar məlum məqsədlərinə tabe etdirdikləri həyatlarını Yol adlandırırlar [4, s.4]. Əslində, təriqətin lüğəti mənası «yol» deməkdir. Lakin təsəvvüf nöqteyi-nəzərdən bu, Allaha yetişmək üçün riayət olunan qayda və ayinlərin sistemli icrasını təmin edən bir yoldur. Təsəvvüf strukturu içində mövcud olan təriqətlərin hər birinin özünəməxsus görünüş, tac (baş geyimi), xirqə və şeyxə bağlılıq kimi ədəb-ərkanı vardır. Bunların ən əsası isə hər bir təriqətin Həzrət Peyğəmbərə (s) qədər qırılmayan «Şeyx və mürşid» silsiləsinə sahib rəhbəri olmalıdır. Təriqətin məhz təsəvvüf mahiyyəti daşıması onu məzhəbdən fərqləndirən əsas amillərdəndir. [13].

Yalnız bu yolun yolçuları Haqqa çatıb, Allaha qovuşmağa qadirdirlər. Bu Yolun yolçuları olan sufilər təsəvvüfün bütün incəliklərini öz yaşam tərzləri, fikir və kəlamları ilə əsrlərlə yaşatmış və yaşatmaqdadırlar.

Ümumiyyətlə, özündə bu prinsipləri ehtiva edən təsəvvüf və ya sufilik İslamda mənəviyyatın inkişaf yollarını göstərən xüsusi təlimdir. Təsəvvüf alimlərinə görə sufilik müsəlmanın mənəvi axtarışlarının nəticəsidir. Sufilik yolu ilə gedən müsəlman maddi aləmdən azad olmağa və mənəvi cəhətdən yüksəlməyə can atır. Bunu edərkən Allahı sevərək ona ibadət edir, yüksək əxlaqi xüsusiyyətlərə yiyələnir. Mənəviyyatın təkmilləşdirilməsi dinin durğunlaşmasının, onun yalnız qanunlar toplusuna çevrilməsinin, ruhun itirilməsinin də qarşısını alır. Sufilər hesab edir ki, mənəviyyat yolçuları dözümlülük, sülhsevərlilik, yüksək əxlaqi xüsusiyyətləri əldə edərək lovğalıq, xəsislik, kobudluq, etinasızlıq kimi mənfi xüsusiyyətlərdən qurtula bilərlər. Onlara görə mənəvi inkişaf yalnız fiqhi qadağalarla və fətvalarla əldə olunmaz. Buna görə problemlərin yalnız zahiri tərəflərini nizamlayan qanunlardan fərqli olaraq sufilik hər kəsin mənəvi aləminə təsir edir, ona Allaha içdən gələn sevgi duyğularını aşılayır [15].

Belə ki, insan yalnız şəriət qanunlarına tabe olaraq, ağlın, qəlbin səsinə fikir vermədən yaşasa, şübhəsiz ki, qarşısına qoyduğu amala, niyyətə, məqsədə yetişə bilməz. Hər bir qanunda istisnalar olduğu kimi, təsəvvüf də dini qanunlarda müəyyən istisnaların mövcudluğunu ortaya qoyur. Təsəvvüf dini qanunlarla bərabər eyni zamanda insanın daxili aləmənin, mənəvi qanunlarının, iç dünyasının, əxlaqının, dünyagörüşünün müstəsna əhmiyyətini önə çəkir. Təsəvvüfdə insan bir varlıq kimi son dərəcədə kamildir və eyni zamanda çox itaətkardır. Araşdırdığımız materialda da bu fikri təsdiq edən çox kəlam, ifadə vardır. Sufinin elmli olub, ilahiyyatı bilməsi, Allahın adlarını mütəmadi zikr edib, Ona məhəbbətlə itaət edib ibadət etməsi, tərki-dünya olub, dünya nemətlərindən uzaq durması, dünyanın fani olduğunu qəbul etməsi, təvazökar, əliaçıq, səmimi, cəsarətli olması şərtdir.

## Ədəbiyyat

1. Əlizadə A. (2019), Sufilikdə məqam və hal anlayışı. Şərq araşdırmaları. Bakı: Elm, 74.
2. Bakuvi Seyid Yəhya. Risalələr. 290+90 səh. Sumqayıt şəhəri.13-cü mkr.Niyazi küçəsi. 2014. s.37-38
3. Hümmətova X. (2013), Yunus Əmrə. Risalətün-nüshiyyə. Bakı: Elm və təhsil, 12.
4. Sufi hekayətləri. (2016), Altun kitab, Bakı, 4.
5. Babayev Y. (2007), Təriqət ədəbiyyatı: Sufizm, hürufizm. Bakı: Nurlan, 31-32.
6. Babayev Y. (2007), Təriqət ədəbiyyatı: Sufizm, hürufizm. Ali məktəblərin filologiya fakültələri üçün dərs vəsaiti. Bakı: Nurlan, 53.
7. İbn Arabi (2012), İlahi Aşk. İstanbul: İnsan yayınları, 45-54.
8. Kılıç M.E. (2015), Tasavvuf düşüncesi. İstanbul, 33.

9. Cəfərli R. (2021). Mövlana yaradıcılığında Eşq fəlsəfəsi. Mövlananın fəlsəfəsi və poeziyası Beynəlxalq konfransı, s.135.
10. Yağmur S. (2012), Tennure ve Ateş Hz. Mevlana. Ankara, 269.
11.
علی بن عثمان هجویری. کشف المحجوب. به کوشش فریدون آسیا بی عشقی زنجانی. قم: موسسه فرهنگی و اطلاع رسانی تبیان،1393
12. https://news.milli.az/society/430717.html
13. https://kayzen.az/blog/din/4301/sufilik-və-onun-azərbaycanda-yayılması.html
14. https://news.milli.az/society/430717.html
15. https://az.wikipedia.org/wiki/Sufizm